# BÖYÜK NEFT İŞİNİN SALNAMƏÇİSİ



Qədim zamanlardan dünyada neft diyarı kimi tanınmış Azərbaycan XIX əsrin sonunda möhtəşəm neft inqilabının vətəni kimi də geniş şöhrət tapdı. 1898-ci ildə Azərbaycan ABŞ, Argentina, Peru və s. kimi ölkələri üstələyib, neft hasilatı sahəsində dünyada birinci yerə çıxdı.

Lakin elə o vaxt Bakıda neft işi ilə məşğul olan ağıllı və uzaqgörən insanlar belə bir həqiqəti yaxşı dərk edirdilər ki, bu iş məhəlli bir iş deyil. Böyük neft işi dünyada əldə olunmuş təcrübənin təhlil edilib ümumiləşdirilməsini, yeni texnika və texnologiyaların işlənib hazırlanmasını, neft elminin inkişafı sahəsində əhəmiyyətli tədbirlərin görülməsini tələb edir.

Həmin o ağıllı və uzaqgörən insanlar arasında fikir mübadiləsi 1899-cu ilin yanvarından Bakı neft sənayeçiləri tərəfindən "Neftyanoye delo" ("Neft işi") jurnalının nəşri ilə nəticələndi. 1920-ci ildən isə bu jurnal "Azərbaycan neft təsərrüfatı" (ANT) adı ilə nəşr edilməyə başlandı.

İndi biz doğma və sevimli jurnalımızın dünyaya gəlməsinin 120 illiyini qeyd edirik.

Bu illər ərzində Azərbaycanın neft sənayesi zəngin bir inkişaf yolu keçib. Bəzi rəqəmləri xatırlatmaq istəyirəm.

1901-ci ildə Azərbaycanda dünya üzrə neft hasilatının yarısından çoxu qədər, yəni 11 mln. t neft çıxarılmışdısa, 2010-cu ildə respublikada bu rəqəm 51 mln. t-a çatdırıldı və sonrakı illərdə müəyyən səviyyədə sabit saxlanıldı. 2018-ci ildə ölkədə 39 mln.t-dək neft və 30.5 mlrd.$m^3$-dək təbii qaz hasil edilib.

Bu nailiyyətlərin əldə olunmasında ANT-nin də layiqli payı var. Əslində bütün bu illərdə jurnal Azərbaycan neft sənayesinin bayraqdarı, neft işinin təbliğatçısı, elmi-texniki tərəqqinin tribunası kimi çox dəyərli fəaliyyət nümunəsi göstərib, böyük neft işinin 120 illik möhtəşəm bir salnaməsini yaradıb. Neft geologiyası, dənizdə və quruda geoloji axtarış və kəşfiyyat işləri, neft və qaz quyularının qazılması, neft və qaz hasilatının texnika və texnologiyası, neft-mədən avadanlığının təkmilləşdirilməsi, dəniz neft qurğularının tikintisi, neft emalı və neft kimyası... Bunları və bir çox digər mövzuları əhatə edən materialları öz səhifələrində Azərbaycan, ingilis və rus dillərində təqdim edən jurnal müstəqillik illərində öz missiyasını uğurla həyata keçirir. Azəri-Çıraq-Günəşli yataqları üzrə Əsrin məşhur neft müqaviləsi, Şahdəniz epopeyası, Cənub Qaz Dəhlizi kimi qlobal layihələr dünən də, bu gün də jurnalın baş mövzularıdır.

Mənim neftçi-alim kimi yetişməyimdə "Azərbaycan neft təsərrüfatı" jurnalının rolunu minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm. Bu jurnal ilə əməkdaşlığımın düz 62 illik bir tarixi var. 1957-ci ildə mən hələ gənc bir mütəxəssis idim və "Azneft" İstehsalat Birliyinin "Gürganneft" Neft Mədənləri İdarəsində 1-ci mədənin (indiki Neft Daşlarının) böyük geoloqu vəzifəsində çalışırdım. Yadımdadır ki, həmin il jurnalın birinci sayında "Ştuserarxası təzyiqin quyuların məhsuldarlığına təsiri" adlı ilk elmi məqaləm dərc edildi. O vaxtdan bəri bir çox nüfuzlu elmi nəşrlərdə, o cümlədən ANT-nin özündə 200-dən çox elmi əsərim çap olunub. Amma etiraf edim ki, ilk məqaləmin işıq üzü gördüyü günü və o vaxt necə sevindiyimi mən bu gün də yaxşı xatırlayıram.

Ümumiyyətlə, ANT Azərbaycanda elmi neftçi kadrlarının yetişməsində diqqətəlayiq rol oynayıb. Vaxtilə bizim gənc elmi mütəxəssislərimizin, demək olar ki, hamısının böyük elmə yolu onların ilk elmi araşdırmalarının nəticələrini bu jurnalın səhifələrində əks etdirən elmi işlərlə başlanıb. Əminəm ki, gənc elmi qüvvələrlə iş sahəsində zəngin təcrübə əldə etmiş ANT bundan sonra da öz səhifələrini neftçi-alimlərin yeni nəslinin üzünə səxavətlə açacaq.

Əlamətdar yubiley münasibətilə ANT-nin baş redaktoru, hörmətli dostum akademik İbrahim Quliyevi, redaksiya heyətinin üzvlərini, jurnalın yaradıcı və texniki işçilərini, müəlliflərini və oxucularını səmimi qəlbdən təbrik edir, onlara yeni nailiyyətlər arzulayıram.

**Xoşbəxt Yusifzadə,**
**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü**